*Qədim Diyar Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 8, Sayı: 6, s. 355−358
*Ancient Land International Scientific Journal.* June 2026, Volume: 8, Issue: 6, pp. 355−358
DOI: https://doi.org/10.36719/2706-6185/61/355-358

# Müasir Azərbaycan qrafikasında qadın sənətkarlar: tendensiyalar və üslub xüsusiyyətləri

**Nigar Zeynallı**

***Xülasə.*** *Müasir Azərbaycan qrafika sənətində qadın rəssamların rolu son illərdə getdikcə daha əhəmiyyətli və fəal hala gəlmişdir. Ənənəvi olaraq, vizual sənət, o cümlədən qrafika sahəsi, uzun müddət kişilər tərəfindən dominasiya olunurdu. Lakin XX əsrin sonlarından etibarən qadın yaradıcıların bu sahəyə inteqrasiyası, həm texniki, həm estetik, həm də məzmun baxımından yeni tendensiyaların formalaşmasına şərait yaratmışdır.*
*Qadın sənətkarlar müasir Azərbaycan qrafikasında müxtəlif üslub və mövzularda yaradıcılıq göstərirlər. Məsələn, Xəyal Abdullayeva və Gülrənə Qurbanova fərdi üslub və yaradıcı yanaşmaları ilə seçilir, əsərlərində müasir estetik prinsiplər və yenilikçi texniki həllər tətbiq olunur. Vəfa Allahyarova, Sevilə Həsənova və Nərgiz Məmmədova isə daha çox sosial mövzulara, milli-mədəni dəyərlərə və müasir həyatın müxtəlif aspektlərinə diqqət yetirirlər. Aytən Bəxşəliyeva, Teyyub Abdullayeva və Fəridə Babayeva isə dekorativlik, kompozisiya müxtəlifliyi və vizual harmoniyanın ön planda olduğu işləri ilə tanınır.*
*Müasir qadın qrafika rəssamlarının əsərlərində fərdiləşmə meyli xüsusilə nəzərə çarpır. Onlar yalnız ənənəvi təsvir funksiyasını yerinə yetirmir, həm də fərdi dünyagörüşlərini, sosial mövqelərini və cəmiyyətə münasibətlərini ifadə edən müstəqil yaradıcı subyekt kimi çıxış edirlər. Bu fərdilik kompozisiya quruluşunda, rəng seçimində və mövzu yanaşmasında açıq şəkildə özünü göstərir. Bununla yanaşı, rəqəmsal texnologiyaların tətbiqi qadın sənətkarların əsərlərinə yeni vizual effektlər və interaktivlik gətirərək qrafika sənətinin imkanlarını genişləndirmişdir.*

***Açar sözlər:*** *Azərbaycan qrafika sənəti, qadın rəssamlar, müasir təsviri sənət, vizual estetika*

---

Azərbaycan Rəssamlıq Akademiyası, magistrant, Bakı, Azərbaycan
E-poçt: nigarmeryem95@gmail.com
Daxil oldu: 28 fevral 2026; Qəbul edildi: 4 May 2026; Onlayn dərc edildi: 28 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Women Painters in Contemporary Graphic Art of Azerbaijan

**Nigar Zeynalli**

***Abstract.*** *The role of women artists in modern Azerbaijani graphic art has become increasingly important and active in recent years. Traditionally, visual art, including the field of graphics, was dominated by men for a long time. However, since the end of the 20th century, the integration of women artists into this field has created conditions for the formation of new trends in terms of both technical, aesthetic and content.*
*Women artists are creative in various styles and themes in modern Azerbaijani graphics. For example, Khayal Abdullayeva and Gulrana Gurbanova are distinguished by their individual style and creative*

*approaches, and their works apply modern aesthetic principles and innovative technical solutions. Vafa Allahyarova, Sevila Hasanova and Nargiz Mammadova pay more attention to social issues, national-cultural values and various aspects of modern life. Ayten Bakhshaliyeva, Teyyub Abdullayeva and Farida Babayeva are known for their works in which decorativeness, compositional diversity and visual harmony are at the forefront.*
*The tendency to individualization is especially noticeable in the works of modern female graphic artists. They not only perform the traditional function of depiction, but also act as independent creative subjects expressing their individual worldviews, social positions, and attitudes towards society. This individuality is clearly manifested in the compositional structure, color choice, and thematic approach. At the same time, the application of digital technologies has expanded the possibilities of graphic art, bringing new visual effects and interactivity to the works of female artists.*

***Keywords:*** *Azerbaijani graphic art, female artists, contemporary fine arts*

---

Azerbaijan Academy of Arts, Master's student, Baku, Azerbaijan
E-mail: nigarmeryem95@gmail.com
Received: 28 February 2026; Accepted: 4 May 2026; Published online: 28 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Azərbaycan qrafika sənəti müasir dövrdə yeni estetik axtarışlar, fərdi üslub və ideya zənginliyi ilə inkişaf etməkdədir. XX əsrin sonlarından etibarən qrafika sənəti yalnız texniki icra vasitəsi kimi deyil, həm də fəlsəfi və bədii düşüncənin ifadə forması kimi inkişaf etmişdir (Azərbaycan Dövlət Rəsm Qalereyası. n.d.).. Bu prosesdə qadın rəssamların rolu əhəmiyyətli dərəcədə artmış, onlar estetik yanaşmalar, mövzu müxtəlifliyi və innovativ texniki həllərlə janrın sərhədlərini genişləndirmişlər. Qadın rəssamlar arasında Mənzər Ağayeva, Vəfa Allahyarova, Sevinc Ələsgərova və digər sənətkarlar, öz yaradıcılıqlarında milli-mədəni dəyərləri, qadın identikliyini və sosial mövzuları vizual şəkildə ifadə edərək müasir Azərbaycan qrafikasının formalaşmasında mühüm yer tuturlar (AZ-ART Gallery. n.d.).
Mənzər Ağayeva qrafika sənətində klassik və müasir yanaşmaları birləşdirərək, insan obrazlarını, psixoloji vəziyyətləri və daxili harmoniya mövzularını qabardır. Onun əsərlərində xəttin ritmi və simvolik kompozisiyalar əsas ifadə vasitəsidir. Xüsusilə linorəsm və qara-ağ qrafika nümunələrində lakonik ifadə tərzi ilə fərqlənən Ağayeva, qara-ağ kontrastının ustalıqla tətbiqi ilə əsərlərinə emosional dərinlik və lakoniklik qatır (Azərbaycan təsviri incəsənəti. n.d.).



**Şəkil 1**
*Ağayeva Mənzər Hacı qızı. Nizami Gəncəvinin poeziyası əsasında qrafik lövhə. 1990-cı illər.ç20 × 16 sm. Kağız üzərində qarışıq texnika (qrafika)*

*Mənbə:* Mədəniyyət və turizm portalı. (n.d.)

Mənzər Ağayeva, Nizami Gəncəvinin poeziyası əsasında yaratdığı qrafik əsərlərində mistik-fəlsəfi ovqat, insan-təbiət harmoniyası və poetik düşüncəni vizual formada təqdim edir (Mədəniyyət və turizm portalı. n.d.). 1990-cı illərə aid olan əsər kağız üzərində qarışıq texnika ilə icra edilmişdir və dekorativ-simvolik qrafika nümunəsidir. Kompozisiyada axıcı xətlər zaman və məkan anlayışının nisbi xarakterini simvolizə edir, qadın fiquru isə poeziyada mənəvi saflıq və ilham mənbəyini təcəssüm etdirir (Azərbaycan Respublikası. n.d.).Aypara və quş fiqurları ilə təbiət elementləri Şərq estetikası ilə bağlı simvolik məna daşıyır, əsərə sakit və meditativ ab-hava qazandırır. Vəfa Allahyarova isə müasir qrafikada konseptual düşüncə və dekorativ üslubun sintezini yaradır, qadın obrazları və fəlsəfi məna qatları ilə diqqət çəkir (ArtFocusNow. 2023, March 17).



**Şəkil 2**

*Vəfa Allahyarova "Musiqi və məişət səhnəsi". 2000-ci illər. Kağız üzərində qarışıq texnika (qrafika)*

*Mənbə:* Art Focus Now, 2023.

Sevinc Ələsgərova, qrafik əsərlərində emosional ifadə və narrativliklə seçilir, qadının cəmiyyətdəki rolu, daxili azadlıq və fərdi təcrübələri vizual metaforalarla təqdim edir (Əliyev, 2025). O, simvolik fiqurlar, deformasiya olunmuş formalar və ekspressiv xətt texnikasından istifadə edir (Rzayeva, 2025). Nərgiz Məmmədova isə müasir qrafikada eksperimental yanaşmalarla tanınır; onun əsərləri abstrakt düşüncə, ritmik kompozisiya və tekstural həllərlə fərdi interpretasiyaya sövq edən vizual strukturlar yaradır (ResearchGate. 2025).



**Şəkil 3**

*Nərgiz Məmmədova. Daxili səslər. 2010-cu illər. Kağız üzərində qarışıq texnika (qrafika, monotipiya, sepya tonları)*

*Mənbə:* Məmmədova, 2017.

Nərgiz Məmmədovanın "Daxili səslər" əsərində insanın daxili aləmi, yaddaş və mənəvi bağlılıq simvolik qadın fiqurları vasitəsilə ifadə olunur (Məmmədova, 2017). Yumşaq sepya tonları və axıcı

xətlər əsərə poetik və introspektiv ovqat bəxş edir, bu əsər onun emosional və fəlsəfi üslubunu nümayiş etdirir (Quliyev, 1984). Aytən Şirzadova isə milli-mədəni motivləri müasir qrafik dil ilə təqdim edir, folklor elementləri, qadın simvolikası və tarixi yaddaş mövzularını stilizə olunmuş formalarla ifadə edir, ornamental düşüncə ilə müasir dizayn estetikasını birləşdirir (Azərbaycan müasir incəsənət kitabı / The Modern Art of Azerbaijan. İbrahimbəyli, Ed.).

## Nəticə

Aparılan təhlil göstərir ki, Azərbaycan müasir qrafika sənətində qadın rəssamların rolu əhəmiyyətli dərəcədə artmışdır. Mənzər Ağayeva, Vəfa Allahyarova, Sevinc Ələsgərova, Nərgiz Məmmədova, Aytən Şirzadova, Xəyal Əbdulrəhmanova, Fərəh Balayeva və Mətanət Aslanova kimi rəssamların yaradıcılığı müasir qrafika sənətinin həm texniki, həm də ideya-məzmun baxımından zənginləşməsini təmin etmişdir. Onların əsərləri milli-mədəni dəyərləri, Şərq estetikasını və sosial-psixoloji mövzuları müasir qrafika vasitələri ilə sintez edərək janra yeni estetik çalarlar gətirmiş, qadın rəssamları yaradıcılıq prosesinin əsas qüvvələrinə çevirmişdir. Bu əsərlər, Azərbaycan təsviri sənətinin beynəlxalq səviyyədə tanıdılmasına töhfə verərək müasir incəsənət araşdırmaları üçün aktual mövzu və gələcək elmi tədqiqatlar üçün geniş imkanlar yaradır.

## Ədəbiyyat

1. Azərbaycan Dövlət Rəsm Qalereyası. (n.d.). *Qrafika – Azərbaycan qrafika sənətinin növləri və texnikaları*. https://azgallery.az/az/content/32
2. *Azərbaycan müasir incəsənət kitabı = The modern art of Azerbaijan*. (n.d.). TEAS Press. https://varyox.az/astv/contemporary-art-book/
3. Wikipedia contributors. (n.d.). *Azərbaycan təsviri sənəti. Vikipediya*. https://az.wikipedia.org/wiki/Azərbaycan_təsviri_sənəti
4. Azərbaycan Respublikası. (n.d.). *Müasir dövrdə Azərbaycan təsviri sənətinin rolu və mövqeyi*. https://azerbaijan.az/related-information/176
5. ArtFocusNow. (2023, March 17). *Female artists in Baku re-think tradition and gender*. https://artfocusnow.com/news/female-artists-in-baku-re-think-tradition-and-gender/
6. Quliyev, S. (1984). *Azərbaycan incəsənətinin xalq sənəti*. İşıq.
7. Mədəniyyət və Turizm Portalı. (n.d.). *Azərbaycan təsviri sənətində qrafika: Dünən və bu gün*. https://medeniyyet.info.az/page/news/45118/Azerbaycan-tesviri-senetinde-qrafika%3A-dunen-ve-bu-gun.html
8. Məmmədova, M. (2017). Azərbaycan təsviri sənətində qadın rəssamlar. *Mədəniyyət*, 34–57.
9. *Portrait treasury of great Azerbaijan female artists*. (2025). *Scientific Work, 78*(5), 31–37. https://www.researchgate.net/publication/361406907_Portrait_treasury_of_great_Azerbaijan_female_artists
10. Rzayeva, N. A. (2025). *Müasir Azərbaycan rəssamlarının yaradıcılığında Qərbi Avropa və milli ənənələrin sintezi* (Dissertasiya avtoreferatı). Azərbaycan Rəssamlıq Akademiyası. https://aak.gov.az/upload/dissertasion/s_n_t_nasl_q/Avtoreferat_az22.pdf